# Enerji təhlükəsizliyi sahəsində əməkdaşlıq qarşılıqlı etimadı artırır




**1994-cü ildən etibarən keçirilən Beynəlxalq Xəzər Neft və Qaz Sərgisi 28 ildir ki, Xəzərin neft və qaz yataqlarına yatırılan sərmayələri, əsas neft və qaz layihələrini müzakirə etmək üçün dünyanın hər yerindən aparıcı şirkətlərin nümayəndələrini bir araya toplayır. Ənənəvi olaraq keçirilən neft-qaz sərgisində neft, qaz hasilatı və emalı, nəqletmə və logistika sahəsində qabaqcıl texnologiyalar nümayiş olunur və bu sahə üzrə ölkələr arasında müqavilələr, memorandumlar imzalanır. Hər il olduğu kimi, bu il də dünyanın hər yerindən neft sənayesinin liderləri, neft, qaz və energetika sahəsində aparıcı mütəxəssislər paytaxt Bakıda görüşdülər. İyun ayının 1-dən 4-dək keçirilən Xəzər regionunun neft-qaz və enerji sektorunda ən mötəbər tədbiri olan Bakı Enerji Həftəsi özündə üç layihəni - 27-ci Beynəlxalq Xəzər Neft və Qaz, 10-cu Yubiley Xəzər Beynəlxalq Energetika və Bərpa Olunan Enerji sərgilərini və Xəzər Neft və Qaz Konfransı adı ilə tanınan Bakı Enerji Forumunu ehtiva edirdi.**

Qlobal enerji böhranı və enerji xammalının dünya bazarında qiymətlərinin qalxması sərgiyə olan marağı ilbəil daha da artırır. Azərbaycanın illər əvvəl həyata keçirdiyi enerji layihələri bu gün qlobal enerji layihələrinə çevrilib. Vaxtilə Azərbaycanın neft-qaz sənayesinə qoyulan sərmayə, yaradılmış əlverişli investisiya iqlimi, xarici investorların sərmayələrinin qorunması, güclü siyasi iradə və qurulan beynəlxalq əməkdaşlıq bugünkü reallıqları mümkün etmişdir. Belə ki, paytaxt Bakıda təşkil olunmuş sərgidə iştirak etmək üçün ABŞ, Böyük Britaniya, Avropa İttifaqı, Yaponiya, Çin, Səudiyyə Ərəbistanı, Birləşmiş Ərəb Əmirlikləri, Sinqapur, İndoneziya, Hindistan, Türkiyə, İsrail, Rusiya, Belarus, Gürcüstan, Qazaxıstan, Özbəkistan və s. olmaqla 31 ölkədən 250 şirkətin nümayəndə heyətlərinin bir araya gəlməsi dünyanın nəhəng neft sənayesi liderlərinin ölkəmizin karbohidrogen ehtiyatlarına və bərpaolunan enerji mənbələrinə olan böyük marağının göstəricisidir. Sərgidə bərpaolunan enerji mənbələri sahəsində pilot layihələr, o cümlədən külək enerjisinin potensialını nümayiş etdirən "yaşıl enerji" zonasının yaradılması, "yaşıl hidrogen"in hasilatı və ixracı imkanları təqdim olunmuşdur.

Eyni zamanda, sərginin iştirakçısı olan qlobal neft və energetika sektorunu təmsil edən aparıcı şirkət nümayəndələri neft hasilatı və enerji daşıyıcılarının nəqli, neft və qazın saxlanması üçün anbar sistemlərinin təmin edilməsi və texniki xidmət sahəsində innovativ texnologiyaları, o cümlədən gələcək neft-qaz layihələrini nümayiş etdirmişlər.

**(davamı 3-cü səhifədə)**

# Enerji təhlükəsizliyi sahəsində əməkdaşlıq qarşılıqlı etimadı artırır




**(əvvəli 1-ci səhifədə)**

Bakı Enerji Həftəsi çərçivəsində 27-ci Beynəlxalq Xəzər Neft və Qaz Sərgisinin rəsmi açılış mərasimində iştirak edən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbir çərçivəsində aparılan müzakirələrin enerji təhlükəsizliyi və enerji ehtiyatlarının şaxələndirilməsi kimi mühüm məsələlərlə bağlı dialoqu gücləndirəcəyini bildirərək demişdir: "Yeri gəlmişkən, Bakı Enerji Həftəsi gözəl fürsət olacaq, çünki həmin mühüm məsələlərin müzakirəsi üçün qonaqlarımız arasında bir çox ölkələrdən yüksək səviyyəli rəsmilər var. Eyni zamanda, əlbəttə, biz Cənub Qaz Dəhlizinin komanda üzvləri, o cümlədən hökumətləri ilə fəal dialoqu davam etdirməliyik. Mən Cənub Qaz Dəhlizində iştirak edən ölkələrin - Türkiyənin, Gürcüstanın, Bolqarıstanın, Yunanıstanın, Albaniyanın, İtaliyanın hökumətlərinə fəal əməkdaşlıq etdiklərinə görə təşəkkürümü bildirmək istəyirəm. Hazırda yeni çağırışların və tələbatların olduğunu nəzərə alaraq, əlbəttə, biz artıq digər potensial istehlakçı ilə danışıqlar prosesindəyik. Lakin bunun üçün yalnız bizim səylər kifayət olmayacaq. Avropada infrastruktura, yeni interkonnektorların tikintisinə yatırımlar olmalıdır və yeni şərtlər üzərində razılıq əldə edilməlidir...".

Qlobal və regional enerji təhlükəsizliyi sahəsində böyük layihələr həyata keçirən ölkəmiz Avropanın və dünyanın bir çox ölkələrinin enerji təhlükəsizliyinin təmin olunmasında əhəmiyyətli rol oynayır. Belə ki, bu gün neft və qaz ixracına əsaslanan, iqtisadiyyatı dinamik surətdə inkişaf edən Azərbaycan təbii qazını son illər qaz ehtiyatlarının azaldığı və bu səbəbdən də qazın qiymətinin artdığı Avropaya da ixrac edir. Ənənəvi qaz təchizatçıları olan Norveç və Niderlandda qaz hasilatı sürətlə aşağı düşən Avropa İttifaqı üçün Cənub Qaz Dəhlizi ən önəmli layihələrdən biridir. Bu gün Avropada Azərbaycan qazına böyük tələbat var. Digər tərəfdən isə Avropa bazarı Azərbaycan üçün ən əlverişli bazardır. Artıq Azərbaycan qazı Cənub Qaz Dəhlizi vasitəsilə Avropaya çatdırılır. Ötən il tarixdə ilk dəfə olaraq Azərbaycan öz təbii qazını Avropa bazarına birbaşa boru xətləri ilə çıxararaq Cənub Qaz Dəhlizinin sonuncu seqmenti olan Trans-Adriatik Qaz Boru Kəməri (TAP) vasitəsilə kommersiya məqsədli qazın nəqlinə başladı. TAP İtaliyanın qazpaylayıcı şəbəkəsinə uğurla birləşdirildikdən sonra kommersiya məqsədli təbii qaz Melendugno məntəqəsindən "SNAM Rete Gas" (SRG) qazpaylayıcı şəbəkəsi ilə İtaliyaya, Nea Mesimvria məntəqəsindən isə DESFA şəbəkəsi ilə Yunanıstan və Bolqarıstana çatdırıldı. Tarixdə ilk dəfə Azərbaycan dünyada ən çox təbii qaz idxal edən Avropanın qaz bazarına birbaşa çıxış əldə etdi. Bununla da öz ixrac imkanlarını şaxələndirən Azərbaycan iqtisadiyyatının inkişafına, eyni zamanda da iqtisadi müstəqilliyinin güclənməsinə zəmin yaratmış oldu.

"ACWA Power", BP, "Equinor", "Masdar", INPEX, "Türkiye Petrolleri", "Baker Hughes", "Microsoft", "PASHA Bank", "TechnipFMC", "Tenaris", "TotalEnergies", "Uniper", "Azeri MI Drilling", AZFEN, "Baku Steel Company", "Caspian Drilling", "Caspian Marine Services Limited", "Ernst & Young", "Global Energy Azerbaijan Management", "Tekfen" şirkətlərinin sponsorluğu ilə gerçəkləşən Bakı Enerji Həftəsi çərçivəsində 27-ci Beynəlxalq Xəzər Neft və Qaz Sərgisində çıxışı zamanı Prezident İlham Əliyev böyük həcmdə qaz hasilatının mümkün olmadığını və bunun üçün müqavilə imzalanmasının vacibliyini də bildirmişdir. Ölkə başçısı diqqətə çatdırmışdır ki, hasilatın artması üçün etibarlı tərəfdaşlar və eyni zamanda sərmayədarların olması vacib şərtdir.

Qaz yataqlarının işlənilməsi ilə bağlı ən böyük layihələrdən biri olan Cənub Qaz Dəhlizi Xəzər hövzəsindən təbii enerji resurslarının nəqlində mühüm rol oynayır. 7 hökumət və 11 müstəqil şirkətin iştirakı ilə reallaşan bu layihə Xəzər dənizinin Azərbaycan hissəsinin qaz resurslarını birbaşa Avropa bazarlarına çıxararaq, bütöv regionun enerji xəritəsini dəyişir. Ümumiyyətlə, Cənub Qaz Dəhlizinin icrasında - Azərbaycan, Gürcüstan, Türkiyə, Bolqarıstan, Yunanıstan, Albaniya, İtaliya iştirak etmiş və bu layihənin iştirakçısı olan ölkələrin enerji təhlükəsizliyi məsələləri tam şəkildə təmin edilmişdir.

Azərbaycanın həm regionda, həm də Avropada enerji təhlükəsizliyi sahəsində önəmli rol oynadığını bir daha təsdiqləyən 27-ci Beynəlxalq Xəzər Neft və Qaz Sərgisi bu illər ərzində beynəlxalq əməkdaşlıq meydanı kimi mühüm statusunu qoruyub saxlaya bilmişdir. Böyük Britaniyanın "ICA Group" şirkətinin İdarə Heyətinin məsləhətçisi Rassel Teylor çıxışı zamanı sərginin region üçün əhəmiyyətini qeyd edərək demişdir: "Bu tədbir bizə qeyri-rəsmi mühitdə təkbətək görüşlərin, beynəlxalq və regional sənaye liderləri ilə görüşlərin keçirilməsinin mühüm əhəmiyyət kəsb etməsini göstərir... Əlbəttə ki, bu tədbirə sadiq olaraq davamlı dəstək göstərdiyi üçün təşkilat komitəsinin adından Azərbaycan Respublikasının Energetika Nazirliyinə və Azərbaycan Respublikasının Dövlət Neft Şirkətinə dərin təşəkkürümü bildirmək istəyirəm. Zati-aliləri, Bakıda keçirdiyimiz sərgilərə davamlı olaraq dəstək verdiyiniz və bu mühüm sənaye tədbirinin açılışında ənənəvi olaraq iştirak etdiyiniz üçün mən, həmçinin Sizə öz dərin minnətdarlığımı ifadə etmək istəyirəm. Bu, hər kəsə həm bu sənaye sahəsinin region üçün əhəmiyyətini və eyni zamanda, həmin sənaye sahəsinin daxilində bu tədbirin əhəmiyyətini göstərir".

Nəhəng neft-qaz ehtiyatlarına malik olan Azərbaycan məqsədyönlü şəkildə yürütdüyü enerji siyasəti ilə enerji şaxələndirilməsi və enerji təhlükəsizliyi sahəsində ölkələr arasında əməkdaşlıq əlaqələrini inkişaf etdirərək qarşılıqlı etimadı gündən-günə artırır. Azərbaycanın enerji strategiyasının tərkib hissəsi olan Cənub Qaz Dəhlizinin bu gün 3500 kilometrlik məsafəni qət etməsi tərəfdaşlar arasında möhkəm təməllər əsasında qurulmuş əməkdaşlığın bariz nümunəsidir. Dünya Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankı, Asiya İnkişaf Bankı, Avropa İnvestisiya Bankı, Asiya İnfrastruktur və İnvestisiya Bankı kimi aparıcı beynəlxalq maliyyə institutlarının və Azərbaycan, Türkiyə, Gürcüstan, Yunanıstan, Bolqarıstan, Albaniya və İtaliyanın iştirakı ilə Cənub Qaz Dəhlizinin uğurla tamamlanması beynəlxalq bazarlarda enerji resurslarının etibarlı təchizatçısı olan ölkəmizin artan gücünün, potensialının göstəricisidir.

Bu gün Azərbaycan neft-qaz sənayesinin inkişafı və dünya enerji təhlükəsizliyinə verdiyi töhfələrə görə diqqət mərkəzindədir. Regionda neft-qaz siyasətinin müəyyən edilməsində mühüm rol oynayan Azərbaycan öz imkanlarını gündən-günə artırır. Bu günlərdə Bakı Ekspo Mərkəzində keçirilən Xəzəryanı regionun energetika sektoru üzrə ən irimiqyaslı tədbiri - 27-ci Beynəlxalq Xəzər Neft və Qaz Sərgisi Azərbaycanın dünya ölkələri ilə mövcud əlaqələrini gücləndirməklə yanaşı, yeni və daha geniş əməkdaşlıq münasibətləri yaratdı. Ölkəmizin energetika sektorunda, xüsusən də təbii qaz və bərpaolunan enerji mənbələri, mineral kəşfiyyat sahələrinə qarşılıqlı investisiyaların təşviqi, yeni işgüzar əməkdaşlıq münasibətlərinin qurulması və birgə müəssisələrin yaradılması üzrə əməkdaşlığı nəzərdə tutan müqavilələr və sənədlər imzalandı. Bütün bunlarla bərabər, regionun iri neft və qaz layihələrinin müzakirə edildiyi ən böyük beynəlxalq platforma hesab olunan 27-ci Beynəlxalq Xəzər Neft və Qaz Sərgisi həm də dünyada böyük nüfuz sahibi olan ölkəmizin əldə etdiyi nailiyyətlərin nümayişi oldu.

**Mehparə ƏLİYEVA,**
**"Respublika".**

Respublika .- 2022.- 10 iyun.- S.1;3.